# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Təsdiq edirəm:
“Biznesin idarə edilməsi” kafedrasının
müdiri: dos. Əliyev M.Ə.
“ 04 ” sentyabr 2025 –cü il

**“BİZNES STRATEGİYASI” fənni üzrə**

**İŞÇİ TƏDRIS PROQRAMI**

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00189** |
| **Fənnin növü:** | **Məcburi** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **payız** |
| **Fakültə:** | **“Biznes və menecment”** |
| **Qrup:** | **33, 29.** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ - 30/30)** |
| **Kredit sayı:** | **4 (dörd)** |
| **Kafedra:** | **“Biznes və loqistika”** |

## II. Müəllim haqqında məlumat



| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Niyazi Həsənov (i.e.d. professor)** |
| **E-mail ünvanı:** | niyazisan@gmail.com |
| **İş telefonu:** | **012 440 33 67** |
| **Tələbələr üçün qəbul vaxtları:** | **cümə günləri, saat 11:00-13:00** |

Bu sillabus University of California, Berkeley (UCB) Amerika (Business strategy) fənninin məzmununa uyğun olaraq "Biznesin və logistika" kafedrasının i.e.d. professoru Niyazi Həsənov tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn "Biznes strategiyası" əsaslarını öyrətməklə regional və qlobal şəraitdə biznesin strateji cəhətdən proseslərinin təkamülünü, biznesin strategiyasının təyinatını, biznesin strateji cəhətdən müvafiq fəaliyyət üçün xarakteristikasını, iqtisadi sahələr üzrə biznes strategiyasının qurulması üçün elmi-nəzəri təminatının əsaslarını, onların tətbiqi xüsusiyyətlərini və vasitələrini, biznes strategiyasının təşkili məsələlərini, beynəlxalq səviyyə təqdim oluna bilən resurslarının strukturunu və strateji cəhətdən biznes prosesinin əsas cəhətlərini və strategiya baxımından biznesin informasiya təhlükəsizliyi kontekstində təminatı, strategiyanın biznesə tətbiqi aspektlərini, digər biznes şəbəkələri üçün iş rejimlərini, ümumilikdə strateji baxımdan biznesin səmərəli üsul və vasitələrini özündə ehtiva edir.

Eyni zamanda "Biznes strategiyası" fənninin xarakteristikası, kommersiya, bank və digər biznes nümayəndəlikləri, TMK fəaliyyətinin strateji cəhətdən fəaliyyəti rolunda Web saytların funksiyaları, internetdə reklam və Web marketinqin təşkili, müasir internet resursları, informasiyanın xarakterindən və ötürmə üsulundan asılı olaraq iqtisadi məsələlərin həllində biznes strategiyalarının tətbiqi imkanlarının reallaşdırılması bu fənninin tədrisinin başlıca istiqamətləri çərçivəsində özünü göstərir.

## IV. Fənnin məqsədi və vəzifələri

"Biznes strategiyası" kursunun əsas müddəaları ilə tanış etməkdən, müxtəlif xarakterli məsələlərin həllində biznes strategiyalarının səmərəli tətbiqi baxımından mövcud vəziyyəti səciyyələndirməkdən, biznes strategiyasının müasir əməliyyat sistemləri mühitində qlobal səviyyədə müasir tələblərə cavab verən biznes strategiyaları sistemində praktiki iş vərdişlərinin elmi-nəzəri cəhətdən tələbələrə tədris əsasında öyrədilməsi ilə bağlıdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələrə biznes strategiyaları əsasında, müasir tədrisdə və gələcək fəaliyyətlərində istifadə etməyi öyrətmək;
- fənninin mənimsənilməsi tələbədən bakalavr səviyyəsində biznes strategiyası sahəsində biliklərin təmin edilməsi;
- öz növbəsində bu fənn biznes strategiyası istiqamətində müvafiq nailiyyətlərindən istifadə edərək biliklərin, o cümlədən, iqtisadi biliklərin əldə edilməsində baza rolunu nəzərdə tutmalıdır;
- bazarda biznes subyektlərin əsas xarakteristikalarını və biznes strategiyası konteksində qiymətləndirmə əsaslı metod və mexanizmiləri öyrətmək;
- biznes strategiyası əsasında daxili və xarici mühit amillərinin qarşılıqlı əlaqədə olmasını biznesin ümumi inkişafına təsirinin olduğunu tələbələrə məntiqli nümunələrlə izah etmək;
- müasir dünyada bazar iqtisadiyyatı qanunlarının fəaliyyət mexanizmlərini və müxtəlif sahələrində biznes strategiyalarının təzahür formalarını, TMK-ların idarəetmə mexanizmilərini tələbələrə öyrətmək.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular müvəffəqiyyətlə mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Biznes strategiyasının elmi-nəzəri əsaslarını;

- Biznes strategiyasının müasir səviyyədə təşkilati-hüquqi formalarına olan tələbləri;
- Biznes strategiyalarının özünə məxsus xarakterik xüsusiyyətlərini;
- TMK-ın tərtib etdikləri biznes strategiyalarının əsasında daxili və xarici mühit amilləri və onların idarə olunması;
- Biznes strategiyalarında maliyyə vəsaitlərinin daha səmərəli idarə edilməsi;
- Biznes strategiyaları əsasında biznesə qiymət verilməsi və birjalardan faydalanmaq üçün müvafiq fəaliyyəti və s. məsələlər.

**Bacarmalıdırlar**:

- Biznes strategiyaları əsasında müxtəlif yanaşmaları tətbiq etmək bacarığı;
- Biznes strategiyaları əsasında daxili və xarici mühit amillərini qiymətləndirmək;
- Biznes strategiyaları əsasında investisiyaların cəlb edilməsi və müştərək biznes əlaqələrinin qurulması;
- Biznes strategiyaları əsasında beynəlxalq valyuta imkanlarından istifadə etmək bacarığına yiyələnmək;
- Biznes strategiyaları əsasında və müvafiq biznesdə strategiyanın meyarlarına görə müəyyən etmək bacarığı;
- Biznes strategiyaları əsasında innovasiyaların və investisiyaların cəlb edilməsi və risklərin idarə edilməsi və s. məsələlərin səmərəli həllini bacarmaq qabiliyyətinə yiyələnmək;

## VI.Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Biznesdə strategiya anlayışı;
2. Biznes strategiyasının inkişafında müvafiq məktəblər;
3. Biznes strategiyasının mərhələləri;
4. Biznesin inkişafının strateji planı;

5. Biznesin inkişaf strategiyasının xəritəsi
6. Biznes strategiyasının formalaşması zamanı xarici mühit amillərinin təhlili;
7. Biznesin strategiyanın formalaşması üçün daxili mühit amillərinin təhlili;
8. Sahibkarlıq strategiyası;
9. Rəqabət strategiyası
10. Alternativ strategiyalar

11. Portfel strategiyaları
12. İnkişaf strategiyası
13. Korporativ strategiyalar;
14. Strateji göstəricilərin qiymətləndirilməsi;
15. Qlobal dünyada uğura nail olmaq strategiyası

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin tədris metodologiyası

Bu fənni öyrəndikdən sonra tələbə, biznes strategiyasının hüquqi, siyasi və iqtisadi mühitini, biznes strategiyasının insani və mədəni mühiti əsasında, dünya maliyyə mühiti, regional iqtisadi

inteqrasiya, beynəlxalq ticarət, müştərək müəssisələrin yaradılması, kapitalın beynəlxalq hərəkəti, beynəlxalq aləmdə müvafiq xidmətlərə uyğun, təchizat mənbələrinin qlobal səviyyədə yerləşmə, istehsalın təşkili və ixracatın strategiyasını, strateji alyansları, neft strategiyası və biznesin inkişafında onun rolunu, beynəlxalq və yerli səviyyədə səmərəli biznes strategiyasının qurulmasının ümumilikdə iqtisadi inkişafına təsirini, biznes strategiyasında marketinq, biznes strategiyasında mühasibat uçotu və nəzarətin təşkili, valyuta risklərini idarə edilməsi, biznes strategiyasında əmək bölgüsü məsələlərinə qiymət verə biləcək elmi-nəzəri biliyə malik olacaq və müvafiq istiqamətdə strategiya qurmaq potensiala malik olacaqdır.

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri


1. Həsənov N.Ə. «Biznesin strateji idarə edilməsi» Dərslik. Bakı-2019
2. Həsənov N.Ə. "Beynəlxalq biznes" dərs vəsaiti Bakı-2011
3. Həsənov N.Ə. "Beynəlxalq biznes" Dərslik I-ci Hissə Bakı-2022
4. Piraqov. K. M. "Biznesin təşkilatı əsasları" Bakı, 2012.
5. Bayramov Ə.İ. "Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika" Azər-nəşr,1997.
6. Niftullayev. Vaqif. "Sahibkarlığın əsasları. Bakı, Zaman nəşriyyatı,2002.
7. Дэниел Джон Д., Радеба Ли Х. Международный бизнес:внещная среда и деловые операции.М.,Дело.1998.
8. Misir Əmirov "Böyük ipək yolu" dərs vəsaiti. Bakı. 2011.
9. Qafarov Ş.s. İctimai əmək bölgüsü və onun müasir sosial-iqtisadi problemləri. Bakı, 1999
10. А.А.Томпсон-мл, А.Дж.Стикленд «Стратегический менеджмент» Москва. 2006.
11. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999
12. Porter M.E. Competitive Strategy. New York: The Free Press, 2000.
13. Майкл Юджйн Портер «Конкурентная стротегия» М-2011г


**Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.**

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Biznesdə strategiya anlayışı;** | Biznesin strateji cəhətdən missiyası və məqsədlər formalaşması. Biznes strategiyasının müvafiq məqsədi. Biznesin inkişafında strategiyasının məzmunu və quruluşu. Müasir şəraitdə nəzəri baxımdan biznes mühitinin təhlili və nəticələrin şərhi. Biznesin inkişafı kontekstində tərtib edilən strategiya çərçivəsində ətraf mühitin elmi-nəzəri əsaslarla təhlili. | **"Biznesin strateji idarə edilməsi" Dərslik. Bakı-2019** Fəsil-1 (1.1, 1.2, 1.3 1.4 1.5) |
| 2 | **Biznes strategiyasının inkişafında müvafiq məktəblər** | Biznesin inkişafında strategiya məktəblərinin təhlili və tarixi əsasları. Biznesin inkişaf strategiyasının hazırlanması zamanı mühitin təhlil və bu inkişafda matris | **"Biznesin strateji idarə edilməsi" Dərslik. Bakı-** |

| | | | |
|---|---|---|---|
| | | strukturlarının rolu. Müvafiq təsərrüfat subyektlərinin bazarda strateji inkişafı üçün, strateji - planların formalaşması və həyata keçirilməsi proseslərinin təhlili.<br>Qlobal bazarda müvafiq layihələr çərçivəsində strategiyaların tətbiqi üçün metodlar və metodologiyaların nəzəri əsaslarının təhlili. | **2019**<br>Fəsil-2<br>(2.1, 2.2, 2.3 2.4 2.5) |
| 3 | **Biznes strategiyasının mərhələləri** | Biznesin inkişafında strateji planlaşdırma və onun həyata keçrilməsi mərhələləri. Biznes strategiyasının mərhələlərinin strateji təhlilin nəticələrinə əsaslanaraq biznesin inkişaf strategiyasının seçimi. Biznes strategiyasının mərhələləri və biznesin inkişafında təşkilati strategiyanın mahiyyəti. Azərbaycanda biznes strategiyasının mərhələləri və biznesin inkişaf strategiyasının tətbiqinin elmi əsaslarla müəyyən edilmiş təməl mərhələləri. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-3<br>(3.1, 3.2, 3.3 3.4) |
| 4 | **Biznesin inkişafının strateji planı** | Biznesin strateji plan halına salınması və bazarın tələblərinə uyğun təhlili və mahiyyəti. Biznesin inkişaf strategiyasına adekvat informasiya təminatı və rəqəmsal tranfarmasiyanın zərurətinin təhlili. Qlobal dünya baxımından korporativ rəhbərliyin inkişaf strategiyasında müvafiq məhsuliyyəti. Biznesin inkişafının stratrji plan kontekstində inkişafının müasir dəyərlər çərçivəsində əhəmiyyəti. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-10<br>(10.1, 10.2, 10.3 10.4).<br>Fəsl-13<br>(13.5) |
| 5 | **Biznesin inkişaf strategiyasının xəritəsi** | Biznesin inkişafında strateji xəritənin uğurlu biznesdə rolu. Qlobal dünyada biznesin inkişaf strategiyasında missiya. İnkişaf strategiyalarına təsir edən müasir innovasiyaların rolu və yeri. Bazarda müvafiq iqtisadi inkişafa məntiqə uyğun tərtib edilmiş strategiyaların təsiri. Strateji yol xəritəsinin firma və ya şirkətin inkişafına təsiri. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-11<br>(11.1, 11.2, 11.3, 11.4) |
| 6 | **Biznes strategiyasının formalaşması zamanı xarici mühit amillərinin təhlili** | Strategiyanın formalaşmasına təsir edən xarici mühit amillərinin təhlili. Biznesin inkişaf strategiyasının tətbiqi zamanı məhsul konsepsiyasına təsir edən xarici mühit amilləri. Biznesin inkişafında məhsulun imicinə təsir edən xarici mühit amillərinin bazarda rolu. Biznesin inkişaf strategiyasının tərtibatı zamanı məhsulun reytinqinə təsir edən xarici mühit amillərinin nəzərə alınması və təhlili. Biznes strategiyasının formalaşması zamanı xarici mühit amillərinin rəqabət mühitinə təsiri və təhlili. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-5<br>(5.4,)<br>**“Beynəlxalq biznes” Dərslik. Bakı-2022**<br>Fəsil-2<br>(2.1, 2.2, 2.3)<br>Fəsl-3.<br>(3.1, 3.2, 3.3,) |

| | | | |
|---|---|---|---|
| | | | Fəsl-4<br>(4.5) |
| 7 | **Biznesin strategiyanın formalaşması üçün daxili mühit amillərinin təhlili** | Biznesin strategiyanın formalaşması üçün daxili mühit amillərinin müəyyən edilməsi. Biznesin strategiyanın formalaşması üçün daxili mühit amillərinin biznesin inkişaf istiqamətində müvafiq strategiyanın yerinə yetirilməsi prosesinə nəzarət. Şirkətin inkişaf strategiyasında təşkilati strukturun daxili mühit kontekstində təhlili. Biznesin strategiyanın formalaşması üçün daxili mühit amillərinin yeri və rolu. Bazarda struktur xüsusiyyətlərin ayrı - ayrı növlərinin daxili mühit kontekstində təhlili. Biznesin strategiyanın formalaşması üçün daxili mühit amilləri əsasında məhsulun strateji dinamikasının təhlili. Biznesin strategiyanın formalaşması üçün daxili mühit amilləri əsasında uğurlu vəziyyətin yaradılması. Biznesin strategiyanın formalaşması üçün daxili mühit amillərinin uyğun inkişafa dəstək verən əsaslar. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-5<br>(5.4,)<br>**“Beynəlxalq biznes” Dərslik. Bakı-2022**<br>Fəsil-2<br>(2.1, 2.2, 2.3)<br>Fəsl-3.<br>(3.1, 3.2, 3.3,)<br>Fəsl-4<br>(4.5).<br>**“Sahibkarlığın əsasları” 2002**<br>Fəsil-17<br>(17.1, 17.2) |
| 8 | **Sahibkarlıq strategiyası** | Sahibkarlıq strategiyası üçün diaqnostikasının təşkil edilməsi. Sahibkarlıq strategiyasının tərtibi zamanı şirkətlərin biznes - proseslərinin modelləri və strukturların tiplərinin təhlili. Sahibkarlıq strategiyası üçün şirkətin biznes proseslərinin diaqnostikası, ekspress -metod üzərindən təhlili. Sahibkarlıq strategiyasında biznes proseslərinin optimallaşdırılması üzrə metodiki məsələlərin təhlili. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-13<br>(13.2)<br>**“Sahibkarlığın əsasları” 2002**<br>Fəsil-1<br>(1.1, 1.2, 1.3,1.4, 1.5) |
| 9 | **Rəqabət strategiyası** | Biznesin inkişafında rəqabət strategiyasının elmi - nəzəri əsaslar üzərindən təhlili. Biznesin inkişafında rəqabət strategiyasının qurulması üçün müvafiq müasir modellər. Rəqabət strategiyaların müasir şəraitdə nəticələri. Azərbaycanın iqtisadi inkişafında rəqabət strategiyalara müasir tələblər kontekstindən yanaşma. Rəqabət strategiyalarda İKT-nin rolu və yeri. | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-15<br>(15.1, 15.2, 15.3, 15.4) |
| 10 | **Alternativ strategiyalar** | Biznesin inkişafında alternativ strategiyaların elmi - nəzəri əsasları. Biznesin inkişaf strategiyasının qurulması üçün alternativ modellər. Alternativ strategiyaların müasir biznesin inkişaf nəticələri. Azərbaycanın Respublikası | **“Biznesin strateji idarə edilməsi” Dərslik. Bakı-2019**<br>Fəsil-9 |

| | | | |
|---|---|---|---|
| | | müvafiq iqtisadi inkişafında alternativ strategiyalara müasir tələblər kontekstindən yanaşma. Alternativ strategiyalarda İKT-nin və rəqəmsal transformasiyanın rolu və yeri. | (9.1, 9.2, 9.3, 9.4, 9.5) |
| **11** | **Portfel strategiyaları** | Biznesin inkişafında portfel strategiyalarının əhəmiyyəti. Portfel strategiyalarında təcrübə və diaqnostika. Portfel strategiyalarının təhlil prinsipləri. Portfel strategiyaların indikatorları, bazarın cazibədarlığı, şirkətin məhsuluna tələbat, bazarın seqmentləri, rəqabətə davamlılıq və gəlirlilik, bazarda şirkətin nisbi payının göstəricisi, bazarda payı, liderlik, tələbin tempi, kapital qoyuluşları, marketinq strategiyasının hazırlanması və daha təkmil edilməsi, mümkün strategiyalar, liderliyin saxlanılması, firma və ya şirkətin rəhbərlik məsələsi, portfelin strateji tarazlığı, qənaətli zonalar, bacarıqlıların inkişafı, pul vasitələrini vermək və şirkətin uzunmüddətli strateji maraqlarını təmin edən zonalar, vahid portfel tərkibində şirkətin mövqeyini müəyyən etmək miqdar göstəriciləri, informasiya, vəziyyətin dəyişikliyi, marketinqdə xərclərin dəyişikliyi, məhsulun keyfiyyəti, nəticələr | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019.** Fəsil-12 (12.1, 12.2, 12.3) |
| **12** | **İnkişaf strategiyası** | Biznesin inkişaf srategiyasının elmi - nəzəri cəhətdən əsaslandırılmış mərhələləri. Sahibkarlığın inkişafında strategiyaların mahiyyəti və seçimin əsas mərhələləri. İnkişaf strategiyaların hazırlanması üçün əsas qaydalar və prosedurlar. İnkişaf strategiyası və maliyyə vəziyyətinin diaqnostikası. Strateji planın strukturlaşdırılması metodikası. İnkişaf strategiyasında təcrübə və nəzəriyyələr, biznesin inkişaf strategiyalarının daha ətraflı təsnifatı, M.Porterin inkişaf strategiyalarının təsnifatı, xərclərin azaldılması strategiyası, model təşkilati davranışın inkişaf strategiyası, inkişaf strategiyası üçün istənilən xərclərin azaldılması, rəqabət üstünlüyü, fərqləndirmə strategiyası, yeni istehlak dəyəri, biznesin inkişaf strategiyasında icra üsullarının fərqi, müştərilərin xidmətini yüksək səviyyədə təmin edilməsi, diqqət strategiyası, firma və ya şirkətin inkişaf strategiyasının əsas prinsipi, zəif və ya güclü rəqiblər, bazar seqmentləri, heyətin | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019.** Fəsil-13 (13. 1, 13.3, 12.4) |

| | | | |
|---|---|---|---|
| | | bazar payı, xərcləri minimuma endirmək, təşkilati strategiyalar, versiyalar. | |
| 13 | **Korporativ strategiyalar** | Korporativ strategiyaların elmi - nəzəri cəhətdən əsaslandırılmış mərhələləri. Korporativ strategiyaların sahibkarlığın inkişafında elmi- nəzəri mahiyyəti və seçimin əsas mərhələləri. Korporativ strategiyaların bazarda müvafiq inkişafa təsiri və müvafiq strategiyaların hazırlanması üçün, əsas qaydalar və prosedurların təhlili. Korporativ strategiyaların bazarda müvafiq inkişafa əsaslanan maliyyə vəziyyətinin diaqnostikası. Korporativ strategiyaların müvafiq strateji planın strukturlaşdırılması metodikası və onun təhlili. | **"Korporativ sosial məsuliyyət" Bakı-2017.** Fəsl-13. (13.1, 13.2, 13.3, 13.4, 13.5) |
| 14 | **Strateji göstəricilərin qiymətləndirilməsi** | Strateji göstəricilər və onlara qiymət verilməsinin nəzəri aspektləri. Strateji göstəricilər və onlara qiymət verilməsi sisteminin yaranmasının ilkin şərtləri və mahiyyəti. Strateji göstəricilər və onlara qiymət verilməsi sisteminə əsaslanan innovativ mexanizmlərin tətbiqi. Strateji göstəricilər və onlara qiymət verilməsi üzərindən müvafiq metodlara əsaslanaraq şirkətin inkişaf strategiyasının qurulması və həyata keçirilməsi məsələlərinin təhlili. | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019.** Fəsil-14 (14. 1, 14.2, 14.3, 14.4) |
| 15 | **Qlobal dünyada uğura nail olmaq strategiyası** | Qlobal dünyada uğura nail olmaq üçün biznesin inkişaf strategiyanın yerinə yetirilməsinə nəzarət. Qlobal dünyada firma və ya şirkətin inkişaf strategiyasında təşkilati strukturun yeri və rolu. Qlobal bazarlarda struktur xüsusiyyətlərin ayrı - ayrı növlərinin təhlili. Qlobal dünyada məhsulun strateji dinamikasısının təhlili. Qlobal bazarlarda uğurlu vəziyyətin təhlili. Qlobal dünyada müvafiq strategiyaya uyğun inkişafın təmin edilməsi kontekstində əsaslar. | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019.** Fəsil-7 (7. 1, 7.2, 7.3, 7.4, 7.5.) |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə qiymətləndirmə**

| | | |
|---|---|---|
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**XV. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur.Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal)qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVI Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

Fənn üzrə semestr ərzində (imtahanaqədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** **i.e.d. professor. Niyazi Həsənov**